# Rayon müəllimlərinin sentyabr konfransı

## Təhsil islahatları davam edir

Sentyabr ayının 3-də və 4-də rayon müəllimlərinin konfransı keçirilmişdir. Müəllimlərin ali məclisinə məktəb direktorları, onların müavinləri, məktəbdənkənar tərbiyə müəssisələrinin rəhbərləri, fəal və qabaqcıl müəllimlər, gənclər təşkilatlarının rəhbərləri, ictimaiyyətin nümayəndələri dəvət olunmuşdular.

Konfransda Milli Məclisin deputatı, respublika Ağsaqqallar Şurasının sədri **Fəttah Heydərov,** rayon icra hakimiyyətinin başçısı **Səbuhi Abdullayev,** Təhsil Nazirliyinin şöbə müdiri **Faiq Şahbazlı** iştirak etmişlər.

Konfransın plenar iclasından əvvəl rayon təhsil şöbəsinin işçiləri, fəal müəllimlər ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər gül dəstələri düzmüş, dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

Konfransın plenar iclası rayon Mədəniyyət Mərkəzində davam etmişdir. Əvvəlcə konfrans iştirakçıları və qonaqlar mərkəzin foyesində məktəblilərin əl işlərindən ibarət təşkil edilmiş sərgiləri ilə tanış olmuşlar. Sonra mərkəzin iclas salonunda başlayan plenar iclasını rayon təhsil şöbəsinin müdiri **Oqtay Hacıyev** açmış, qonaqları və konfrans iştirakçılarını salamlamışdır.

Konfransın gündəliyində iki məsələ dururdu:

**1. 2012—2013-cü dərs ilinin yekunları və yeni dərs ilində qarşıda duran vəzifələr.**

**2. Azərbaycan Respublikası müəllimlərinin XIV qurultayına nümayəndələr seçilməsi haqqında.**

Birinci məsələ barədə rayon təhsil şöbəsinin müdiri O. Hacıyev məruzə etmişdir **(məruzə ixtisarla dərc olunur).**





Məruzə ətrafında müzakirələr olmuş və məktəblərdə təlim-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq üçün mülahizələr söylənilmişdir. Müzakirələrdə Vəndam qəsəbə 1 saylı tam orta məktəbin xarici dil müəllimi **Mədinə Hacıyeva,** Cığatelli kənd tam orta məktəbin informatika müəllimi **Yazgül Hacıyeva,** şəhər 1 saylı tam orta məktəbin məzunu **Nərmin Məmmədli,** şəhər 4 saylı tam orta məktəbin direktoru **Qəşəngi Musayeva,** Zarağan kənd 1 saylı tam orta məktəbin məzunu **Şahnaz Qafarlı** (ali məktəbə qəbul imtahanında Qəbələ rayonu üzrə ən yüksək bal—692 bal toplamışdır), Texniki Yaradıcılıq Mərkəzinin dərnək rəhbəri **Türanə Abdullayeva,** Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi **Fəxri Soltanov** çıxış etmişlər. Natiqlər tədris ili ərzində təhsilə göstərilən dövlət qayğısından, təhsilin inkişaf mərhələlərindən, məktəbin maddi və texniki bazasının gücləndirilməsindən, qazanılan uğurlardan, gənclərin fəal həyat mövqeyindən söhbət açmışlar.

Konfransda rayon icra hakimiyyətinin başçısı **Səbuhi Abdullayev,** Milli Məclisin deputatı, respublika Ağsaqqallar Şurasının sədri **Fəttah Heydərov,** Təhsil Nazirliyinin şöbə müdiri **Faiq Şahbazlı** çıxış etmişlər **(çıxışlar dərc olunur).**

Müzakirələrdən sonra müvafiq qərar qəbul olunmuşdur.

Konfransın ikinci məsələsi haqqında rayon təhsil şöbəsinin müdiri O. Hacıyev məlumat vermişdir. Oktyabr ayında keçiriləcək respublika müəllimlərinin XIV qurultayına açıq səsvermə yolu ilə 9 nəfərdən ibarət nümayəndə seçilmişdir.

Sonra rayon müəllimlərinin ali məclisinə rayon icra hakimiyyəti və təhsil şöbəsi tərəfindən bir qrup ən fəal müəllim və şagirdlər, məzunlar fəxri fərmanlarla təltif olunmuşlar.

Konfrans nümayəndələri plenar iclasın sonunda Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul etmişlər.

* * *

Konfransın ikinci günü Qəbələ şəhər 1 saylı tam orta məktəbində müəllimlərin bölmə iclası keçirilmişdir.

# Rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyevin məruzəsi

*(Məruzə ixtisarla dərc olunur)*

**Hörmətli qonaqlar!**
**Hörmətli konfrans iştirakçıları!**

Bu günlər daim yeniləşən, inkişaf edən və gözəlləşən Azərbaycanımızın hər yerində ənənəvi sentyabr konfransalrı keçirilir. Konfransda bütün təhsil işçiləri ötən dərs ilinin nəticələrini təhlil edir, araşdırmalar aparır və qarşıdan gələn yeni dərs ilində görüləcək işləri müəyyənləşdirirlər.

YUNESKO bəşəriyyətin çoxillik inkişaf təcrübəsinə əsaslanaraq XXI yüzilliyi "Təhsil əsri" adlandırır. Bunu nəzərə alaraq cəmiyyətin bütün sahələrində olduğu kimi təhsil sahəsində də günügündən qloballaşan dünya ilə ayaqlaşmaq üçün islahatların aparılması vacibdir. Dövlət müstəqilliyinin 22-ci ildönümünü yaşayan Azərbaycan Respublikası, təhsildə islahatlara Azərbaycan xalqının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə başlamışdır.

Ümumtəhsil sistemi sahəsində islahatların həyata keçirilməsində məktəblərin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və onlarln infrastrukturunun yeniləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu sahədə 2009-cu ildə "Təhsil haqqında qanun"un qəbul edilməsi təhsil sisteminin fəaliyyəti üçün hüquqi baza yaratdı. "Təhsil haqqında qanun" milli təhsilin yeni müstəvidə formalaşmasına və onun dünyanın inkişaf etmiş ölkələrinin təhsil standartlarına uyğun fəaliyyəti üçün real zəmin yaratmışdır.

Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində təhsilimizin inkişafı üçün hüquqi baza ilə yanaşı, təlim-tərbiyə müəssisələrinin maddi-texniki bazasının da yenidən qurulmasına xüsusi önəm verilmişdir. Təkcə 2012—2013-cü dərs ilində ölkəmizin şəhər və rayonlarında dövlət büdcəsi, müxtəlif qurumların dəstəyi ilə 118-ə qədər yeni məktəb binası tikilmiş, əsaslı təmir edilmiş və müasir standartlara cavab verən informasiya kommunikasiya texnologiyaları, fizika və kimya laboratoriyaları ilə təchiz olunmuşdur.

Məktəb tikintisi, onların infrastrukturunun yeniləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsində Heydər Əliyev fondunun müstəsna xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fondun təşəbbüsü ilə 2005—2013-cü illərdə 450-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evləri, internat məktəbi binaları tikilib istifadəyə verilmiş, əsaslı təmir və bərpa olunub müasir avadanlıqlarla təchiz edilmişdir. O cümlədən rayonumuzda Heydər Əliyev fondunun dəstəyi ilə 9 yeni məktəb binası tikilib istifadəyə verilmişdir.

**Hörmətli konfrans iştirakçıları!**

Respublikamızın bütün bölgələrində olduğu kimi Qəbələdə də sosial-mədəni obyektlərin, təhsil müəssisələrinin tikilib istifadəyə verilməsi yüksək əhəmiyyət kəsb edir.

Rayonumuzda gedən sosial-iqtisadi inkişafda yeni məktəb binalarının tikintisi, onların əsaslı təmiri biz təhsil işçilərini sevindirir və qəlbimizi iftixar hissi ilə doldurur.

Cari dərs ilində Nazirlər Kabineti, Fövqaladə Hallar Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Təhsil Nazirliyinin nümayəndələri tərəfindən rayonun 41 məktəbinə baxış keçirilmişdir. Yaxın illərdə, keçirilən monitorinqə uyğun həmin məktəblərdə əsaslı təmir işlərinin aparılması və yeni məkəb binalarının tikintisi nəzərdə tutulmuşdur.

**(Ardı 5-ci səhifədə).**